# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Qırx İl



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Allah İsraillilәri Misirdәn qurtaranda, Musa xalqı ibadәtә çağırdı.  O hәmd mahnısı yazdı: “Mәn Rәbbә oxuyacağam, çünki O, izzәtlә qәlәbә çaldı”.  Musa Allahın İsrail üçün etdiyi bütün böyük işlәrә görә Ona hәmd etdi.

HALLELUYA!

ALLAHA İZZƏT!



Üç gün səhralıqda olandan sonra susuz xalq gölməçə tapdı.  Lakin onlar acı suyu içə bilmədilər.  Dua etmək əvəzinə onlar deyindilər.  Allah çox xeyirxahdır.  O, suyu içmək üçün yararlı etdi.





Elə görünürdü ki, insanlar hər şeyə
görə deyinirdilər. Onlar fəryad edirdilər:
“Misirdə bizim yeməyimiz var idi. Səhralıqda biz
acından öləcəyik”. Həmin axşam Allah bildirçin adlanan
quşları göndərdi. Adamlar onları asanlıqla tutdular.

Ertəsi gün Allah manna göndərdi. Bu, ballı yuxa kimi bir şey idi. Hər səhər toplamaq üçün torpaqda manna hazır olurdu.



Bu yolla Allah Öz xalqını səhrada yedizdirdi.

Onlar hər gün yeni yemək üçün Allaha etibar etməli idilər. Lakin bəzi adamlar mannadan artıq miqdarda toplayırdılar, amma Allah onun axşama qurdlanıb iylənəcəyini demişdi.



Təbii ki, Şənbə günündən başqa, dünəndən qalan mannanı qurd basmışdı.  Həftənin o xüsusi yeddinci günü insanlar istirahət edirdilər və dünəndən qalan mannanı yeyirdilər.



Allah
səhralıqda
İsraillilərin
qayğısına qaldı.
O, onlara yemək və su
verdi – onları düşmənlərdən
qorudu.



Amaleqlilər hücum edəndə Musa Allahın əsasını yuxarı qaldırdıqca İsrail döyüşlərdə qələbə çalırdı.





Allah İsraillilərə dedi: "Əgər siz Mənim səsimə itaət etsəniz, onda Mənim xüsusi xalqım olacaqsınız". Xalq Musaya dedi: "Biz Allahın bütün dediklərinə əməl edəcəyik". Onlar Sina dağının ətəyinə gəldilər və Musa Allahla görüşməyə gedərkən dağın ətəyində gözlədilər.



Musa qırx gün Allahla dağda oldu. Allah iki daş lövhəyə On Əmr yazdı. O, Musaya Öz xalqının necə yaşamaq istədiyini dedi.

1. “Məndən başqa allahların olmasın”.
2. “Heç bir büt düzəltmə və heç bir təsvirə səcdə etmə”.
3. “Rəbbin adını boş yerə çəkmə”.
4. “Şənbə gününü yadda saxlayıb təqdis et”.
5. “Atana və anana hörmət et”.

6. “Qətl etmə”.

7. “Zina etmə”.

8. “Oğurluq etmə”.

9. “Heç kimə qarşı yalan şahidlik etmə”.

10. “Heç bir şeyə tamah salma”.



Musa Sina dağında Allahla olarkən İsraillilər dəhşətli bir şey etdilər. Onlar Haruna qızıldan bir dana düzəltməyi əmr etdilər və Allaha səcdə etmək əvəzinə ona səcdə etdilər.  Allah çox qəzəbləndi.  Musa da həmçinin.





Musa rəqs edən xalqı və qızıl dananı görəndə daş lövhələri yerə çırpıb sındırdı.  Musa qızıl dananı qəzəblə dağıtdı. Ona səcdə edən pis adamları öldürdü.

Allah əvvəlki iki daş lövhəsini yenisi ilə əvəz etdi. O, Musaya Müqəddəs məskən – Allahın Öz xalqı ilə olacağı yeri, ətrafı hasarlı böyük çadır düzəltməsini dedi.  Onlar orada Allaha səcdə etməli idilər.  Bulud və od sütunu Allahın onlarla olduğunu göstərirdi.



Onlar Kənan torpağına yaxınlaşarkən Musa Allahın Öz xalqına vəd etdiyi torpağa baxmaq üçün on iki casus göndərdi. Casusların hamısı o yerin gözəl olduğu ilə razılaşdılar! Lakin ikisi, Yeşua və Kalev inandılar ki, onlar Allahın köməyi ilə bu torpağı zəbt edə bilərlər.



Digər on casus güclü şəhərlərdən və ölkədə olan nəhəng adamlardan qorxdular. Onlar inildədilər: “Biz ölkəni ələ keçirə bilmərik”.

Onlar Allahın onları Misirdən qurtarması üçün etdiyi böyük işləri unutdular.



Xalq on inamsız casusla razılaşdı.  Onlar ağladılar və Misirə geri dönməyə hazırlaşdılar.  Onlar hətta Musanı öldürməyə də cəhd etdilər!



Allah Musanın həyatını xilas etdi.  Sonra O, xalqa dedi: "Qırx il siz səhralıqda dolaşacaqsınız.  Yalnız Kalevlə Yeşua və övladlarınız sizin xor baxdığınız ölkədə yaşayacaqlar".



# Qırx İl

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Çıxış 15 – dən Saylar 14-ə qədər

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**